# BƏDİİLİKLƏ ELMİLİYİN QOVUŞUĞUNDA



*Yusif YUSİFLİ,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, professor*

*(Əvvəli ötən sayımızda)*

Əsərlərinin ayrı-ayrı dönəmlərdə müxtəlif ölkələrdə nəşr edilməsi, Vaqif Sultanlınan milli ədəbiyyatı Azərbaycanın hüdudlarından kənarda tanıtmaqla bitmir, o həm də xalqın ruhu, mənəviyyatı, ən böyük, ən dəyərli sərvəti, "namusu", "qeyrəti" adlandırılan dilimizin özəlliklərini, onun tərcümə, eləcə də tərcüməşünaslıq məsələləri üçün yararlılığı imkanları haqqında maraq oyatmağı bacarır.

Yaradıcılığının iki qolu ilə yaxından tanışlıq onun tükənməz xalq hikmətinə, müdrikliyinə bələd olduğunu, dolğun əsərlər müəllifi səviyyəsinə yüksəldiyini göstərir. Vaqif Sultanlının iti zəkası, dolğun filoloji biliyi ilə oxucuları heyrətləndirməsi, yazıçı-filoloq kimi tanınması oxucuları, ədəbi ictimaiyyəti düşündürən əsərlər yazması ilə şərtlənir. O, ədəbi-bədii düşüncənin bu bənzərsiz daşıyıcısı yaradıcılığının hər iki qolunda gördüyü dəyərli işləri ilə həmin sahələri bacarıqla qovuşdurur. Buna görə də həm bədii, həm də elmi üslubda yaratdığı əsərləri ilə insanları düşündürə bilir. Buna səbəb, yəni Vaqif Sultanlının yazdığı hekayələrin oxuculara müsbət yönümdən təsir göstərə bilməsi yazıçı-filoloqun çağdaş zamanın tələblərinə hərtərəfli cavab verməsi ilə bağlıdır. İstedadlı yazıçı Vaqif Sultanlı Azərbaycan nəşrində hekayə janrında gözəl əsərlər yazan peşəkar sənətkar səviyyəsinə yüksəlməyi bacarmışdır.

Yazıçı hekayələrlə yanaşı, eləcə də daha dolğun, tutumlu romanlarında insanı ucaldan başlıca mənəvi keyfiyyətlərə - məhəbbət, sevgi, dostluq, hörmət, inam, qorxmazlıq, vətənpərvərlik, zəhmətkeşlik, doğruçuluq, təbiətə qayğı kimi hissləri təbliğ etməyə ciddi önəm verməşdir. Onun hekayə və romanlarında özgələşmə, yaddaşsızlıq, mənəviyyatsızlıq və başqa problemlərin özünəməxsus səpkidə canlandırıldığı diqqəti çəkir.

Çağdaş dövrdə hekayə janrında yazan ədiblər qədərincədir. Hətta hələ tanınmayan, az təcrübəsi olan yazıçıların da bu janrda öz bədii düşüncələrini ifadə etməyə çalışdıqlan gözə çarpır. Hekayənin ideya-estetik tutumu baxımdan povestə, romana bərabər olduğunu söyləmək olar.

Forma çevikliyi, epik-təhkiyə imkanın yığcamlığa hekayə janrının başlıca özəlliyi sayılır. Vaqif Sultanlının hekayələrinin ədəbi uğurlar qazanmasında müəllifin klassik hekayələrdən bacarıqla qaynaqlanmasının önəmli rolu vardır. O, dəyərli ədəbi-ənənələrə hörmətlə yanaşan yazıçı olduğuna görə bir-birindən uğurlu, bənzərsiz hekayələr qələmə alaraq oxuyucuları həyat haqqında düşüncələrə çəkir. Vaqif Sultanlı insanların duyduğunu duyan, istək və arzularını dərk edən, ürəkləri oxuya bilən həssas yazıçılardandır. Həyat hadisələrinə güclü obrazlılıq vermək, poetik, bədii düşüncələrini, hikmətli, sadə biçimdə canlandırmağı bacarmaq Vaqif Sultanlının bədii yaradıcılıq üslubudur. Hekayələrindən gətirilən kiçik bədii parçalar söylənilənlərin gerçəkliyini təsdiqləyir: "Gözlərini açanda bir cürə harda olduğunu xatırlaya bilmədi. Son günlər xəstəliklə bağlı huşu gedib- qayıtdığından zehni, yaddaşı tamam korlanmışdı. Handan-hana divardakı saatın zəngindən qocalar evinin ikinci qatındakı otağında dəmir çarpayıda uzandığını duyunca ürəyi üstünə gəldi və birtəhər durub yatağında oturdu" [12, s.197]. "Gecədən xeyli keçmiş hökmdarın səhhəti qəfıldən ağırlaşmağa başladı. Şah kimsəyə bildirmədən yatağına uzanaraq uyumaq istəsə də, ağrının şiddətindən yata bilmədi. Yalnız səhər üzü azacıq mürgüləyincə Humayun yuxusuna gəldi; mələklər oğlunun başı üstündə layla çalır, qanadları ilə üzgözünə sığal çəkirdilər" [12, s. 187].

"Hər həftə yeni il başlayar-başlamaz özünə o şəhərə gedəcəyinə qəti söz verir, vaxt-vədə yetişəndə isə çeşidli səbəblərdən səfərini taxirə salmalı olurdu. Sanki hansı görünməz bir qüvvəsə inadla yollarına sədd çəkir, ayaqlarını buxovlayır, arzularını gerçəkləşdirməyə qoymurdu. Və illər biri-birini əvəzlədikcə yaddaşının axarında o şəhərin bir az da uzaqlaşdığını hiss edirdi" [12, s. 28]. Həcmcə kiçik bir janrda yazılmış bədii yaradıcılıq nümu- nəsində həyat həqiqətlərini geniş və dolğun şəkildə gerçəkləşdirməyi bacarmaq yazıçıdan yetərincə yüksək peşəkarlıq, obrazlı təfəkkür, sağlam dünyagörüşü, düzgün fəlsəfi, məntiqi düşüncə tələb edir.

Vaqif Sultanlının "Ölüm yuxusu" povesti, "İnsan dənizi" [7], "Səhra savaşı" [9] romanları onun bədii yaradıcılığında önəmli yerlərdən birini tutur. Bu əsərlərdə qaldırılan sosial və mənəvi-əxlaqi problemlər aktuallağı ilə diq- qəti çəkir.Yazıçı hekayələrində olduğu kimi, povest və romanlarında da çağdaş dünyanı narahat edən çoxsaylı problemləri gündəmə gətirməyi bacar- mışdır.

Yuxarıda qeyd olunduğu kimi, həm elmi-nəzəri, həm də bədii yaradıcılıq sahələrində fəaliyyət göstərən Vaqif Sultanlı uğurlu nəticələr əldə etməyi bacaran qələmə sahibidir. Onun istər bədii, istərsə də elmi üslubda yaratdığı əsərləri yüksək talantlı, eyni zamanda sənətkar statusunu qazanmış yazıçının, istedadlı, dolğun bilikli filoloq-alimin gündəlik həyatda tez-tez rastlaşdığı çoxsaylı inandırıcı faktlara müxtəlif varlıqlara, hadisələrə və əhvalatlara söykənərək böyük zəhməti, gərgin, ardıcıl axtarışlarmın olduqca maraqlı, uğurlu göstəriciləri adlandırsaq, heç də yanılmarıq.

Vaqif Sultanlını Azərbaycandan uzaqlarda da yaxşı tanıyırlar. Buna görə də alim və yazıçı adlarının layiqli daşıyıcısıdır. Vaqif Sultanlını uzun illərdən bəri gözəl, xeyirxah insan, yaxşı, sədaqətli dost kimi tanıyıram. Onunla birgə Rusiyanın Moskva, Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq konfraslarda iştirak etməyim həyatımda silinməz izlər buraxmışdır.



Filologiya üzrə elmlər doktoru, akademik Nizami Cəfərov Azərbaycan ədəbiyyatı, ictimai fikri üçün xeyli yaddaqalan işlər gördüyünə görə professor Vaqif Sultanlının hər cür diqqətə və hörmətə layiq olduğundan danışmış, onun öz millətinə dəyərli xidmət göstərəcəyinə böyük ümidlər bəslədiyini demişdir [11, s.12].

Professor Zaman Əsgərli "Səhra savaşı" romanının ədəbi-bədii estetik özəlliklərini təhlil etmişdir. Burada metoforlarla bağlı ədəbi düşüncələr öz əksini tapmışdır. Metaforik incəliklərin özəlliyi ilə diqqəti çəkən "Səhra savaşı" romanında asas metaforanın ayrı-ayrı elementlərinin işarələr şəklində göz önündə canlandırılması, paylanması qaydası - simmetriya, xaosla düzümün, harmoniyanın bir-birinin içindən keçməsi, nəticədə insanın taleyində ona atılan daşların yerlərinə oturmasının qəribə ovqat yaratması və s məsələlərin diqqətə çatdırılması anlamlarında olanlar başa düşülməsi dəyərləndirilir [11, s.12].

Professor Grazyna Zayac Vaqif Sultanlı ilə ilk dəfə 2000-ci ilin noyabr günlərində Quzey Kıbrıs Türk Cümhuriyyətinin Qazimağusa şəhərində ənənəyə uyğun iki ildən bir düzənlənən "Üçüncü Uluslararası Kibris Araş- dırmaları Kongresi"ndə tanış olduğunu, tanışlığın onun həyatmda önəmli rolundan, bir neçə günlük ünsiyyətdan sonra onda Azərbaycan ədəbiyyatına və mədəniyyətinə ciddi maraq oyanmasından, Vaqif Sultanlımn məsləhəti ilə Polşada Azarbaycan mühacirətinin taleyi ilə maraqlanmasından bəhs edir [11, s.14].

Professor Vaqif Sultanlı aktual çağdaş zamanın tələblərinə yetərli cavab verən, oxucuların, ədəbi ictimaiyyətin diqqətini çəkən maraqlı bədii yaradıcılıq tapıntıları statusunu qazanmış hekayələri, povestləri və romanları ilə bərabər, həm də talantlı tənqidçi, ədəbiyyatşünas alim kimi də yaxşı tanınır. Onun "Azərbaycan ədəbi tənqidi" monoqrafıyası haqqında yetərincə dəyərli fıkirlər söyləməyə, yalnız müsbət yönümdə düşünməyə imkan verən tutarlı faktdır. Kitab müəllifin Azərbaycan ədəbi tənqidi materialları üzərində çəkdiyi böyük elmi zəhmətin, əldə edə bildiyi çoxsaylı, önəmli ədəbi-bədii faktlar üzərində apardığı nəzəri ümumiləşdirmələrinin uğurlu nəticəsidir.

Tədqiqat əsərində Azərbaycan ədəbi tənqidinin tarixi oyanışı və keçdiyi ardıcıl inkişaf yolu araşdırılmışdır. Vaqif Sultanlı ədəbi tənqidin tarixi məsələlərindən danışarkən ümumi nəzəri müddəalar irəli sürməyi unutmamış, öz nəzəri düşüncələrini yığcam ifadə etməyi bacarmışdır. Araşdırıcı elmi metodlara, istiqamətlərə, ədəbi janrlara toxunmuş, nəzəri məsələlərin ədəbi prosesdə önəmli roluna diqqəti yönəldə bilmişdir. Azərbaycanın Güneyində, həmçinin muhacirətdə yaranmış ədəbi-nəzəri irsin təhlil obyektinə çevrilməsi əsərin diqqəti çəkən başlıca fərqləndirici cəhəti, onun özəlliyidir. Professor qədim və dolğun tarixi olan Azərbaycan ədəbiyyatşünaslığının aparıcı qolu sayılan ədəbi tənqiddən ayrı düşünməyin mümkünsüzlüyünü bildirir. Bizcə, bunu qədim tarixi ənənələrin, dəyərlərin yaşadıcısı, qoruyucusu olan sərvətimizə yəni ədəbiyyatımıza professor Vaqif Sultanlının tükənməz qayğısı, məhəbbəti adlandırsaq, heç də yanılmarıq. Ədəbiyyata belə elmi yanaşma filoloq alimin mənəvi dünyamızın da, başlıca daşıyıcısına, insanşünaslığa və onun haqqmda elmi təlimə yüksək vətəndaşlıq ləyaqəti yönümündən münasibət bəslədiyini təsdiqləyir.

Vaqif Sultanlınm çoxcəhətli yaradıcılıq işləri apardığı haqqında deyilənlər də böyük maraq doğurur. Belə ki, onun bədii yaradıcılıqla yanaşı, sənətin nəzəri-estetik məsələləri üzərində də çalışdığı, ədəbi tənqid və ədəbiyyatşünaslıqla bağlı axtarışlarının monoqrafik araşdırmalarda əksini tapdığı söylənilmiş, Azərbaycan mühacirət ədəbiyyatını ölkədə ilk dəfə sistemli və dolğun şəkildə Vaqif müəllim araşdırmış, görkəmli filoloq alim dünya şöhrətli yazıçıların ədəbi yaşamaq hüququ qazanmış əsgərlərini böyük ustalıqla dilimizə çevirməklə tərcüməçilik səhnəsində də uğur qazanmışdır.

*(Davamı 7-ci səhifədə)*

# BƏDİİLİKLƏ ELMİLİYİN QOVUŞUĞUNDA

*(Əvvəli 6-cı səhifədə)*

Bədii yaradıcılıqdan başqa sənətin estetik məsələləri ilə də məşğul olduğunu ədəbi tənqid, eləcə də ədəbiyyatşünaslıq sahəsində apardığı araşdırmalar, yazdığı əsərlər, monoqrafik tədqiqatlar tanınmış alimin çox geniş sahələrdə fəaliyyət göstərdiyini söyləməyə əsas verir. Ədəbi yaradıcılıq sahəsində qazandığı uğurlara görə Azərbaycan Jurnalistlər Birliyinin Həsən bay Zərdabi mükafatına, Kıbrıs, Balkanlar və Avrasiya Türk ədəbiyyatları Qurumunun Türk dilinə xidmət ödülünə Misir Mədəniyyət Nazirliyinin fəxri-fərmanına, Türkçənin Diriliş Hərəkatı Dəməyinin Üstün Xidmət Ödülünə layiq görülmüşdür. O bədii və elmi işlərinə görə Kıbrıs, Balkanlar və Avrasiya Türk Ədəbiyyatları Qurumu, Beynəlxalq Epos Araşdırmaları Cəmiyyəti, Beynəlxalq Yazarlar Assosiyası, Avropa Müqayisəli Ədəbiyyat Cəmiyyəti kimi nüfuzlu təşkilatlara seçilmişdir.Bütövlükdə Vaqif Sultanlı çoxsaylı oxucuların və ədəbi ictimaiyyətin geniş arealda tanıdığı yazıçılardandır. Onun bədii yaradıcılığını formalaşdıran müxtəlif mövzulu, məzmunlu hekayə, povest və romanları müsbət mənəvi- əxlaqı keyfiyyətlərin təzahürü, dolğun bədii ifadə görümləridir.

Həyat həqiqətləri ilə obrazlı yaradıcılıq fantaziyasının, təxəyyülünün daxili vəhdətini, birliyini əks etdirən bu yaradıcılıq axtarışlarının başlıca özəlliyi vətənpərvərlik, humanizm ideyalarını oxuculara aşılaması, müsbət əxlaqi keyfiyyətləri təbliğ etməsidir. Vaqif Sultanlının nəsrinə bələd olanlar oxuduqları bədii örnəklərdə ictimai ovqatla mövzu və süjet xəttinin məharətlə qovuşdurulduğunu müşhidə edirlər.

Vaqif Sultanlının müxtəlif, rəngarəng yönümdə yaradıcılıq axtarışlarının obrazlı göstəriciləri olan dəyərli bədii əsərləri istedadlı filoloq yazıçının doğma Azərbaycan türkcəsindən çox ustalıqla və yaradıcılıqla yararlana bildiyini sübut edir.

O, bədii yaradıcılıqla bağlı çağdaş dövrümüz üçün dəyəri olan ədəbi- ənənələrə sadiq qalaraq bədii nəsrin gözəl nümunələrini yaradır, sələflərinin bu günlə səsləşən həmin dəyərli ənənələrini daha da dolğunlaşdırır.

Vaqif Sultanlı sosial həyatın tələblərinə yetərincə cavab verən hekayə, povest və romanlar müəllifi kimi oxucuların məhəbbətini, filoloqların və ədəbi ictimaiyyətin hörmətini qazana bilmişdir. Buna görə də Azərbaycan Yazıçılar Birliyi altmış illik yubileyi münasibətilə rəsmi təbrikində onu istedadlı yazıçı, ədəbiyyatşünas-tərcüməçi adlandırmış, 1997-ci ildə Amerikanın, Los-Anceles şəhərində yaradılmış Dünya Azərbaycanlıları Konqresinin fəal üzvlərindən biri olduğunu, dəfələrlə təşkilatın İdarə Heyətinin üzvü seçildiyini diqqətə çatdırmışdır.

Vaqif Sultanlının bədii və elmi yaradıcılığının təzahür formalarının ifadə görümləri onun istedadlı yazıçı, ədəbinəzəri düşüncələri çağdaş dövrün tələblərinə yetərli cavab verən ədəbiyyatşünas, talantlı tərcüməçi, musiqi duyumlu, humanist, vətənpərvər ziyalı olduğunu təsdiqləyir. Vaqif Sultanlının dolğun, hərtərəfli yaradıcılığı ilə bağlı gördüyü işlərin, apardığı araşdırmalarm göstəricilərinin təhlili yazıçı-ədəbiyyatşünas haqqında yalnız xoş, səmimi və dəyərli sözlər söyləməyə geniş imkan verir. Onun geniş dairədə fəaliyyət göstərdiyini təsdiqlayan faktlar çoxdur.

Vaqif Sultanlı ictimai işləri ilə də tanınan ziyalıdır. 1991-ci ildə Ümumdünya Azərbaycançılar Assosiyasını qurması və sədri seçilməsi, Assosiyanın "Azərbaycanın səsi" qəzetini yaratması, 1995-1998-ci illərdə Amerikanın "Azadlıq və azad Avropa" radiosunun Azərbaycan redaksiyasında ədəbi verilişlər müxbiri işləməsi onun yaradıcılıq sahəsinin xeyli genişlənməsi ilə nəticələnmiş, radioda səslənən ədəbi verilişlərin bir hissəsi "Azadlığın üfüqləri" kitabında yayınlanmışdır. Filologiya üzrə elmlər doktoru, professor Vaqif Sultanlının radioda səsləndirilən ədəbi verilişlərinin yetərli sayda Azərbaycanın Güneyində yaranan ədəbiyyatın, eləcə də incəsənətin digər sahələrinin, mədəniyyətin öyrənilməsi, yayılması ilə bağlılığı da diqqəti çəkir.

### ƏDƏBİYYAT


1. Hacıyev Abbas. Ədəbiyyatşünaslığın əsasları (dərslik), - Bakı: ADPU nəşriyyatı, 2005, 367 s.
2. Rəfili Mikayıl. Ədəbiyyat nəzəriyyəsinə giriş, - Bakı: APİ nəşri, 1958,274 s.
3. Seyidov Yusif. Ədəbi tənqid və bədii dil, - Bakı: Yazıçı, 1986, 240 s.
4. Sultanlı Vaqif. Ağır yolun yolçusu (portret-monoqrafıya), Bakı: Azərnəşr, 1996, 192 s.
5. Sultanlı Vagif. Azerbaycan Muhaceret Edebiyatı, İstanbul: Avrupa Yakası Yayınları, 2007, 224 s.
6. Sultanlı Vaqif. Heçlik vadisi (povest və hekayələr), Bakı: Azərnəşr, 2010, 184 s.
7. Sultanlı Vaqif. İnsan dənizi (roman), - Bakı: Gənclik, 1992, 279 s.
8. Sultanlı Vaqif. İstiqlal sevgisi (monoqrafiya), - Bakı: Elm və təhsil, 2014, 252 s.
9. Sultanlı Vaqif. Səhra savaşı (roman). Bakı: Azərnəşr, - 2015, 184 s.
10. Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi, - Bakı: Nurlar, 2019, 312 s.
11. Sultanlı Vaqif. Biblioqrafiya, - Bakı: Nurlar, 2019, 192 s.
12. Sultanlı Vaqif. Tərs axın (hekayələr), Bakı: Azərnəşr, 2023, 232 s.
13. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi (dərslik), - Bakı: 2012, 434 s.


**2025**